# 2023-2024-cü il

# QƏBUL İMTAHANI

8 SİNİF

A VARİANT

2 QRUP

Ad, Soyad

Ata adı

İş nömrəsi

## İNGİLİS DİLİ

**1.** Choose the sentence with the correct Pronouns.
A) I went to the cinema by myself. None of my friends wanted to come.
B) It is December, but there is no any snow on the ground.
C) My mother has two brothers, but my father has none brothers.
D) Each of the trees are at risk of getting cut down.
E) All of the student were listening to the teacher.

**2.** Choose the correct tag question.
***Murad's never been to the cinema, ...?***
A) has he B) isn't he C) does he
D) isn't he E) hasn't he

**3.** Put question to the underlined word.
***The government will open <u>an international</u> airport in Fuzuli.***
A) What kind of airport will the government open in Fuzuli?
B) Where will the government open the airport?
C) Which airport will open the government in Fuzuli?
D) What will the government open in Fuzuli?
E) How many airports will the government open in Fuzuli?

**4.** Choose the correct sentence with Paired Conjunctions.
A) Both my father and my mother likes green tea.
B) The man not only built the house himself, but also made the furniture inside.
C) Neither the blue shirt nor the black jeans suits me.
D) You can either take the train and the bus.
E) Neither smoking nor drinking isn't good for your health.

**5.** Choose the correct sentence with the noun in the Possessive Case.
A) Please, check both Mike's and Amanda's timetable before sending the invitation.
B) Never look at the screen of people's mobile phones on public transport.
C) Different countries used Mr. Tagiyevs' school model exactly in the same way.
D) Heavy rain in Ismayilli's caused floods.
E) She got a job in the womens' section of the theatre.

**6.** Choose the correct Regular Verbs.
A) call, love, study B) visit, leave, pay
C) fail, do, buy D) travel, work, beat
E) arrive, meet, mend

**7.** Choose the correct variant.
***- Do you know the names of those two boys?***
***- I ... their names but they ... to the same tennis club.***
A) am not remember / are belonging
B) don't remember / belong
C) am not remember / belonging
D) don't remember / are belonging
E) am not remembering / belong

**8.** Choose the line of **uncountable** nouns.
A) rain, housework, information
B) knowledge, mail, match
C) traffic, sand, knife
D) furniture, louse, bush
E) luggage, cotton, vegetable

**9.** Choose the correct Relative Pronoun.
***Do you know the writer about ... she is speaking?***
A) which B) whose C) who D) whom E) that

**10.** Choose the correct variant.
***The patient ... the doctor to let ... ... home.***
A) expected / his / go B) wanted / him / go
C) heard / he / go D) asked / he / going
E) made / him / to go

**11.** Choose the correct **interrogative** sentence.
A) Whom you met at our house last week?
B) How many people wants to see the manager?
C) When has your mother gone out to the market?
D) Whose brother don't like to drink coffee?
E) Who prepared the text in the President's speech?

**12.** Choose the correct Modal Verb.
***They ... study in a quiet environment to learn better.***
A) shouldn't B) should C) need to
D) will able to E) haven't to

**13.** Choose the correct variant.
***He apologized for ... late at the meeting.***
A) arriving B) arrive C) to arrive
D) arrives E) arrived

**14.** Choose the correct variant.
A) many question B) a few math teacher
C) some silk clothes D) much juice boxes
E) a little scissors

**15.** Choose the correct variant.
***Dogs rely on their noses because they can smell ... . If that is true, why does dog food smell so ... ?***
A) good / nice B) well / terrible
C) well / nicely D) good / terrible
E) well / terribly

**16.** Choose the correct variant.
***Javad's sister ... a message to him, but he ... it yet.***
A) wrote / hasn't answered
B) wrote / didn't answer
C) write / hasn't answered
D) wrote / has answered
E) writes / have answered

**17.** Choose the correct variant.
***He ... in astronomy since he ... an astronomical event.***
A) was interested / attends
B) was interested / has attended
C) will be interested / has attended
D) has been interested / attended
E) is interested / attended

**18.** Choose the sentences with the correct Tense Forms.

*1. When I have graduated from university, I started job hunting.*
*2. I can live in a small village, if I will have my books with me.*
*3. As soon as you scroll to the end of the text, you will find all the necessary information.*
*4. If you want to be energetic all day long, don't skip your breakfast time.*
*5. I studied for my exam the whole night yesterday.*

A) 1,2,5 B) 3,4 C) 2,3,5 D) 1,3,4 E) 2,4

**19.** Choose the correct variant.

***... important to take care of your car because ... expensive to repair ... engine if ... breaks down.***

A) It's, it's, its, it
B) It's, it, its, it
C) It, its, it's, it
D) It's, it's, it, its
E) Its, it's, it, it's

**20.** Choose the correct degree of the adjective.

***September is ... month than October.***

A) more warmer
B) a much warmer
C) a more warm
D) the warmest
E) warmer

***Read the passage and answer questions 21-25.***

*We use money every day to pay for things we buy. We pay with either coins or paper money. This sort of money is known as cash. The idea of having such a thing as money is one of the most fascinating events developed by humans. But many people don't know where this great idea came from, or why money is valuable.*

*Thousands of years ago, money was not used. Instead, there existed the "barter" system. This meant that if a person wanted something he didn't have, he had to find someone who had it. Then he had to offer him something. And if that person didn't like what he was offered, the first man couldn't get what he needed.*

*In the past, certain things were used as money because everyone would take these things. People used shells, cocoa beans, salt, skins, and even cattle. But coins are much easier to use than cattle.* ***<u>They</u>*** *are easy to store and to carry.*

*Coins were first used in China. They were also used by ancient Greeks. They were first made of either gold or silver. They were stamped with the mark of the government or the ruler of the country for which they were made. The stamp also showed the value of each coin.*

*Money changed with time. No matter what it looks like, money is the idea that people can trade something they have for something they want.*

**21.** Which question has **no** answer in the passage?

A) Why are coins easier to use than cattle?
B) When were coins invented?
C) What was used as money in the past?
D) Was there any system before using money?
E) What were coins made of?

**22.** What does the pronoun "*they*" refer to?

A) shells B) coins C) people
D) cocoa beans E) cattle

**23.** What is the passage mainly about?

A) The "barter" system
B) Ancient countries that used money
C) The idea that makes trading easier
D) The value of stamped coins
E) The history of coins

**24.** Choose the ***incorrect*** statement according to the passage.

A) If a person wanted something he didn't have, he had to find someone who had it.
B) Coins and paper money are known as cash.
C) Stamps showed how valuable each coin was.
D) The Greeks used coins first.
E) First coins were made of gold and silver.

**25.** Which word from the passage has the meaning *"**to move something or someone from one place to another**"?*

A) to support B) to offer C) to carry
D) to store E) to use

## AZƏRBAYCAN DİLİ

**26-30-cu suallar mətn əsasında cavablandırılacaq.**

Keçmiş zamanlarda şahın beş vəziri var idi. O bu vəzirləri təcrübələrinə görə bölərək ona uyğun məvacib verərdi.

**1.** Bir gün gənc vəzirlərdən biri şahın yanına gələrək deyir: "Mən gəncəm, sağlamam, cəldəm. Ancaq mən beşinci vəzirinəm və məvacibim də azdır. Sənin birinci vəzirin isə qocadır, xəstədir, ləngdir. Bizim yerimizi dəyişdirmək daha doğru olmazmı?"

Şah xahişi anladığını deyib ardınca üfüqdə qalxan toza işarə edərək gənc vəzirdən gedib məsələni araşdırmasını istəyir.

Vəzir atına minərək gedib gəlir və deyir:

– Bu bir karvandır.

Şah ondan karvanın hara getdiyini soruşur. **Vəzir** yenidən atlanır, dönüşdə karvanın Buxaraya getdiyini deyir. **Şah** bu səfər karvanın haradan gəldiyini soruşur. **2.** Vəzir suala cavab vermək üçün bir daha atlanır. **Karvanın** Qahirədən gəldiyini öyrənir. Şah bu dəfə karvanın yükünü soruşur. **Taqətdən** düşmüş vəzir yükün ipək olduğunu deyir. **Bu** vaxt şahın yaşlı vəziri öz uzunqulağı ilə gəlir. Şah ondan gedib uzaqda qalxan tozun nə olduğunu öyrənməsini istəyir.

**3.** Bir müddət sonra yaşlı vəzir dönərək deyir: Şahım! Bu bir karvandır. Qahirədən Buxaraya gedir. Yükü ipəkdir. Otuz altı dəvə yüküdür. Buxarada bir yükü otuz qızıla satmağı düşünürlər. **4.** Karvan rəisi bütün malı iyirmi qızıldan satmağa razıdır. **5.** Mən də bu arada Buxaradakılara elçi göndərdim, xəbər verdilər ki, bu malı bizdən iyirmi beş qızıldan alacaqlar. Şahımızın cavabı nədir?

Şah gənc vəzirə tərəf çevrilib: “Anladınmı?” – deyə soruşdu. Gənc vəzir səssizcə başını aşağı saldı...

**26.** Mətndəki obrazlarla bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

| Obraz | a-Doğru | b-Yanlış |
|---|---|---|
| *Şah* | *Gənc vəziri sınaqdan keçirir.* | *Vəzirlər arasında fərq qoyurdu.* |
| *Gənc vəzir* | *Təcrübə baxımından yaşlı vəzirdən geri qalmır.* | *Yaşlı vəzirlə eyni məvacib alır.* |
| *Yaşlı vəzir* | *Təcrübəli və bacarıqlı idi.* | *Gənc vəzirdən fərqli olaraq, karvan haqda məlumatı tam öyrənir.* |

A) 1-a,b;2-a;3-a
B) 1-b;2-a;3-b
C) 1-b;2-a,b;3-b
D) 1-a;2-b;3-a
E) 1-a;2-b;3-a,b

**27.** Hansı ifadəni gənc vəzirə aid etmək olar?
A) Təcrübə olmayan yerdə böyüklük yoxdur.
B) Yaxşılıq et, at dəryaya, balıq bilməsə, xaliq bilər.
C) İnsanlar bəzən öz peşələrində dahi, adi işlərdə isə cahil olurlar.
D) Təcrübə hər zaman insanın işinə yaraya bilməz.
E) Təvazökarlıq öz gerçək dəyərini anlamaqdır.

**28.** Mətndə əvvəlində rəqəm yazılmış hansı cümlələrdə bütün sözlər həqiqi mənada ***işlənməmişdir***?
A) 1, 3, 4 B) 2,4 C) 2,5 D) 3, 4, 5 E) 1, 3, 5

**29.** Mətndə tünd rənglə verilmiş hansı ifadə yeni abzasın ilk sözüdür?
A) Taqətdən B) Vəzir C) Şah D) Karvanın E) Bu

**30.** Mətndə öz əksini ***tapmamışdır.***
A) Gənc vəzirin gileyi
B) Gənc vəzirin dərs alması
C) Vəzirlərin ədavəti
D) Şahın müdrikliyi
E) Yaşlı vəzirin bacarığı

**31.** *“İnsanların sirrini saxlamaq böyüklük əlamətidir”* cümləsinin tərkibinə əlavə söz və ifadə artırmadan onu hansı vasitə ilə məqsədə görə sadə cümlənin müxtəlif növlərində işlətmək olar?
A) söz sırasının pozulmağı ilə
B) əvəzliyin vasitəsilə
C) intonasiyanın vasitəsilə
D) ara sözün vasitəsilə
E) xitabın vasitəsilə

**32.** Hansı cümlədə ara sözdəki vergülü silsək, iki əsas nitq hissəsinə aid söz yaranar?
A) Sözün doğrusu, hamının əhvalını yaxşılaşdırdı.
B) Düzü, xəbərim yoxdur, o, bura gələ biləcəkmi?
C) Heç kəs səni, məncə, anlaya bilməz.
D) Yəqin ki, söylədiklərinin hamısı doğrudur.
E) Həqiqətən, vətəndən ayrı yaşamaq olmur.

**33.** ***Uyğunsuzluğu*** müəyyən edin.

| İsmi birləşmə | Feili birləşmə |
|---|---|
| *1. könül oxşayan musiqi* | *5. susmaq istəyi* |
| *2. uşağın ilk danışığı* | *6. dərindən düşündükcə* |
| *3. dostun anlayanı* | *7. hünərlə vuruşan* |
| *4. Arifin baxdığı* | *8. oxuyan tələbə* |

A) 1,3,7 B) 4,5,8 C) 2,4,5 D) 2,7,8 E) 3,5,8

**34.** *“Şagirdlər[1] bugünkü[2] tədbirdə[3] gözəl[4] mahnılar[5] oxudular”* cümləsinin tərkibindən hansı söz çıxarılsa, cümlənin tərkibində tərzi-hərəkət zərfliyi də olar?
A) 3 B) 5 C) 2 D) 1 E) 4

**35.** Uyğunluğu müəyyən edin.
***1. Əlavə cümlə üzvünə aid deyil.***
***2. Təyinin əlavəsi işlənib.***
***3. Tamamlığın əlavəsi işlənib.***
*a. Odlar yurdu – vətənim mənim, sən daim inkişaf et.*
*b. Səlim qara, yəni tünd rəngi sevirdi.*
*c. Araz – Kürün ən böyük qolu mənbəyini Türkiyə ərazisindən alır.*
*d. Qarabağı – Azərbaycanın musiqi beşiyini hər kəs ziyarət etmək istəyir.*
*e. Bura – Yer kürəsi hər kəsin vətənidir.*
A) 1-c; 2-a; 3-d B) 1-a; 2-b; 3-d C) 1-b; 2-e; 3-a
D) 1-a; 2-c; 3-e E) 1-b; 2-d; 3-e

**36.** Cümlədə təyin kimi işlənə bilən söz birləşmələrini müəyyən edin.
*1. çalışqan şagird* *2. sinif rəhbəri*
*3. məşqə tələsməyən* *4. firmanın sahibi*
*5. imtahana hazırlaşanda* *6. küçədə dayanmaq*
A) 1,3,5 B) 2,3,4 C) 1,5,6 D) 1,2,3 E) 2,4,6

**37.** Mürəkkəb adların yazılışı ilə bağlı uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| | | ● | *Əməkdar incəsənət xadimi* |
| *Doğru* | ● | ● | *Beynəlxalq Ana Dili günü* |
| *Yanlış* | ● | ● | *Mömünə xatun türbəsi* |
| | | ● | *Nəsimi Adına Dilçilik İnstitutu* |

A) B) C) D) E)



**38.** Zaman zərfliyi feili bağlama tərkibi ilə ifadə olunmuş cümləni seçin.
A) Direktorun gələrkən dedikləri bizi çox düşündürdü.
B) Rayondan gələndən sonra heç kimlə görüşməmişəm.
C) Yükdən azad olmadan yüksəlmək mümkün deyil.
D) Analar ağlamasın, analar ağlayanda dözə bilmirəm!
E) Güləndə yanaqları batır, gözləri qıyılırdı.

**39.** Uzlaşma əlaqəsinin kəmiyyətcə pozulduğu cümlə hansıdır?
A) İştirakçıların çoxu öz çıxışları ilə hamını heyrətə gətirmişdilər.
B) Uşaqların bəzisi son sınaqda iştirak etməmişdi.
C) Kim bu cənnət vətənin uğruna olmaz ki fəda?
D) Hörmət əlaməti olaraq hamı ayağa qalxdı.
E) Quşların civiltisindən yazın gəlişi duyulurdu.

**40.** Biri xitab rolunda çıxış edə ***bilməz***.
A) zərf B) ismi birləşmə C) isimləşmiş sifət
D) feili sifət E) təsriflənən feil

**41.** "Qrup rəhbəri Nadirə iş tapdı" cümləsinin sintaktik təhlil sxeminə uyğundur:




A) 3,4 B) 1,4,5 C)2,4 D) 1,3 E) 1,2,5

**42.** Klasteri tamamlaya bilən ifadələri müəyyən edin.

| *Asılı tərəfi hal şəkilçisi olan söz birləşməsidir.* | *məktəbdən gəlmək* |
|---|---|
| | |

*1. həvəsdən düşmək* *2. hərbi xidmətdə*
*3. gücdən düşmək* *4. tibbi öyrənmək*
*5. Göygölün gözəlliyi* *6. sizin uşaqlar*
A) 1,3,6 B) 1,2,5 C) 3,4,5 D) 4,5,6 E) 2,4,6

**43.** Xəbəri hansı sözlərlə ifadə olunan cümlədə mübtəda iştirak ***etmir?***
*1. baxıldı* *2. idmançıdır* *3. sakitlikdir*
*4. xoşum gəlir* *5. başa salacaqsan* *6. var*
A) 1,3,4 B) 1,2,6 C) 4,5,6 D) 3,4,5 E) 1,2,3

**44.** Hansı cümlənin sonunda sual işarəsi ***qoyulmaz?***
A) Hər kəs müstəqil düşünərək qərar verməlidir
B) Əsəbləri sakit olan adamın bədəni də sağlam olar
C) Dünyada ictimai fikrə müqavimət göstərə biləcək bir qüvvə yoxdur
D) Çox yemək xəstəliyin, az yemək müalicənin atasıdır
E) Qərar verərkən tərəfkeşlik etməyin

**45.** Cümlə formasında olan ara söz işlənmiş cümlələri müəyyənləşdirin.
*1. Necə deyərlər, yolçu yolda gərək.*
*2. Görünür, onlardan çox uzaqda yaşayırıq.*
*3. Mən bilən, Səbinə də Şuşaya gedəcək.*
*4. Guya sən olanlardan xəbərsiz idin?*
*5. Dedi ki,dəmiri isti-isti döyərlər.*
A) 3,4,5 B) 2,3 C) 1,2,5 D) 3,4 E) 1,2

**46.** Nöqtələrin yerinə hansı söz yazılsa, cümlə yenə baş üzvlərdən ibarət cümlə olaraq qalar?
***... Lalə universitet tələbəsidir.***
A) O B) Şagirdim C) Qabiliyyətli
D) İbrahimli E) Zəhmətkeş

**47.** Hansı sözlər həm tabelilik, həm də tabesizlik əlaqələrinin tərəfləridir?
***Siz[1] çalışın[2], gedəndə[3] də, gələndə[4] də diqqətli olun[5].***
A) 2,3,5 B) 3,4 C) 1,5 D) 1,2,4 E) 4,5

**48.** Cümlənin şəxsə görə növlərinə aid nümunələri sıralanma ardıcıllığı ilə göstərin.
***1. Dostları ilə vaxt keçirmək Arifin xoşuna gəlirdi.***
***2. Çağırılmayan yerə getməzlər.***
***3. Tələbəlik illərinin son günləri idi.***

| ***Müəyyən şəxsli*** | ***Qeyri-müəyyən şəxsli*** | ***Ümumi şəxsli*** | ***Şəxssiz*** | ***Adlıq*** |
|---|---|---|---|---|
| *I* | *II* | *III* | *IV* | *V* |

A) IV, II, V B) II, III, V C) I, III, IV
D) I, II, IV E IV, III, V

**49.** Hansı durğu işarələri qoyulmalıdır?
*Dənizin dalğaları sahilin narın qumu günəş şüaları bir sözlə hər şey ona ləzzət verirdi.*
A) iki nöqtə, vergül B) vergül, vergül, tire
C) tire, iki nöqtə D) vergül, defis, vergül
E) vergül, vergül, tire, vergül

**50.** Hansı cümlədə cümlə üzvlərinin ardıcıllığı aşağıdakı şəkildədir?
***təyin, mübtəda, tamamlıq, xəbər***
A) Körpə quzular çəməndə sakitcə otlayırdılar.
B) Xallı kəpənəklər, deyəsən, hamını cəlb etmişdir.
C) Dağ çayının səsi uzaqdan eşidilirdi.
D) Torpaq yol yağış yağdığı üçün palçıq idi.
E) Ana, əlimdəki çiçəklər, əlbəttə, bağçamızdan dərilib.

## COĞRAFİYA

**51.** Düzgün olan sətirləri seçin

| | | |
|---|---|---|
| **1** | *S.Dejnyov* | *Avrasiyanın ucqar şərq nöqtəsini fəth edib* |
| **2** | *C.Kuk* | *Viktoriya şəlaləsini kəşf edib* |
| **3** | *R.Amundsen* | *Cənub qütbünü kəşf edib* |
| **4** | *D.Livinqston* | *Havay adalarını kəşf edib* |
| **5** | *A.Humbolt* | *Cənubi Amerikanın geoloji xəritəsini tərtib etmiş* |

A) 1,3,4 B) 2,3,5 C) 1,3,5 D) 1,2,4 E) 2,4,5

**52.** Coğrafiya elmləri sisteminə daxil olan sahələri düzgün qruplaşdırın




A) **1**-Hidrologiya, **2**-Okeanologiya
B) **1**-İqlimşünaslıq, **2**-Kartoqrafiya
C) **1**-Riyazi coğrafiya, **2** -Rekreasiya
D) **1**-Rekreasiya, **2**-Əhali coğrafiyası
E) **1**-Şəhər planlaşdırması, **2**-Kartoqrafiya

**53.** Miqyası 1:100000 olan xəritə üçün səciyyəvi **olmayan** xüsusiyyətləri müəyyən edin.

*1. Materik və okeanların xəritəsi tərtib olunur.*
*2. Təhriflər nisbətən az olar.*
*3. Generalizasiya daha çox olar.*
*4. Relyef horizontallarla təsvir olunur.*
*5. Nisbətən dəqiq ölçü işləri aparmaq mümkündür.*
*6. Xəritədə daha böyük ərazilər təsvir olunur*

A) 2,3,5 B) 2,4,6 C) 1,3,4 D) 2,5,6 E) 1,3,6

**54.** Eyler–Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




*1. Mərkəzində atmosfer təzyiqi yüksək olur*
*2. Hava aşağı hərəkət etdiyindən doyma vəziyyətindən uzaqlaşır*
*3. Cənub yarımkürəsində saat əqrəbi istiqamətində hərəkət edir*
*4. Atmosferin ümumi sirkulyasiyasında iştirak edir*
*5. Atmosferin qapalı alçaq təzyiq sahəsində əmələ gəlir*

A) I-5; II-1,2; III-3,4 B) I-2,3; II-1; III-4,5
C) I-4; II-3,5; III-1,2 D) I-1,2; II-3,4; III-5
E) I-3,5; II-1,2; III-4



**55.** İxtisaslaşmanın formalaşması üçün tələb olunan amillər:

*1. Məhsulun beynəlxalq kooperasiya əlaqələri əsasında istehsalı*
*2. Məhsulun daxili tələbatdan çox istehsal edilməsi*
*3. İstehsal edilən məhsulun ucuz başa gəlməsi*
*4. İstehsal üçün uzunmüddətli şəraitin olması*
*5. İstehsalın regionlarda və iri şəhərlərdə yerləşməsi*

A) 1,2,3 B) 2,3,4 C) 1,3,4 D) 1,5,6 E) 1,3,5

**56.** Yalnız əsas iqlim qurşağında yerləşən təbii zonalar:

*1. Arktik səhralar* *2. Musson meşələri*
*3. Rütubətli ekvatorial meşələr* *4. Tayqa*
*5. Meşə-tundra və tundra* *6. Çöl və meşə çöllər*

A) 1,3,6 B) 2,4,6 C) 1,3,4 D) 1,5,6 E) 1,2,5

**57.** Əhalinin təbii artımının I tipinə malik olan əksər ölkələr üçün səciyyəvi əlamətlər:

*1. Əhalinin ümumi sayında uşaqların payının yüksək olması*
*2. Yaşlı əhalinin üstünlük təşkil etməsi*
*3. Suburbanizasiyanın baş verməsi*
*4. İşçi qüvvəsinə tələbatın çox yüksək olması*
*5. Urbanizasiya səviyyəsinin aşağı olması*
*6. Təhsil səviyyəsinin aşağı olması*

A) 1,2,3 B) 2,4,6 C) 2,3,4 D) 1,5,6 E) 1,3,5

**58.** Duzluluğu 20 ‰ olan 1 litr suya onun 25 %-i qədər şirin su əlavə olunarsa, duzluluq nə qədər olar?

A) 30 ‰ B) 16 ‰ C) 20 ‰ D) 10 ‰ E) 25 ‰

**59.** Uyğunluğu müəyyən edin.

**1. Konvergent sərhədlər** **2. Divergent sərhədlər**

*a. faylı(qədim) dağlar* *b. qırışıq(cavan) dağlar*
*c. rift dərələri* *d. qövsvarı adalar*
*e. sualtı vulkanlar*

A) 1 – b, e; 2 – c, d B) 1 – b, d; 2 – c, e
C) 1 – c, d; 2 – b, e D) 1 – d, e; 2 – a, b
E) 1 – c, d; 2 – a, e

**60.** Şəkillərə əsasən K və L məntəqələri üçün eyni vaxtda Günəşin üfüq üzərindəki vəziyyətləri göstərilmişdir. Buna əsasən ,aşağıdakı fikirlərdən **doğru olanları** seçin




*1. K məntəqəsi daha şərqdə yerləşir.*
*2. L məntəqəsində yerli vaxt daha irəlidir.*
*3. Məntəqələr eyni meridian xətti üzərində yerləşirlər.*
*4. Məntəqələrin coğrafi koordinatları eynidir.*
*5. L məntəqəsində yerli vaxt daha geridir.*

A) 1,3 B) 1,2 C) 2,4 D) 1,5 E) 3,5

**61.** $37^0$ c.e $144^0$ ş.u-da yerəşən Melbrun şəhərində Günəşin maksimum düşmə bucağını və tarixi müəyyən edin .
A) $81,5^0$ , 22 dekabr B) $76,5^0$, 22 dekabr
C) $75,4^0$, 21 mart D) $25^0$, 22 iyun
E) $78^0$, 22 iyun

**62.** Sadalanan xüsusiyyətlər hansı litosfer tavasına aiddir.
- *Qərb hissəsi okean tipli litosfer tavası ilə toqquşma zonasındadır.*
- *Atlantik okeanın genişlənməsində iştirak edir .*
- *Qondvana qurusunun tərkibinə daxildir.*
- *Ətrafında okean tipli kiçik litosfer tavaları mövcuddur.*

A) Afrika tavası B) Şimali Amerika tavası
C) Avrasiya tavası D) Cənubi Amerika tavası
E) Hind-Avstraliya tavası

**63.** Düzgün olan ifadəni müəyyən edin
A) Qərb küləkləri tropik enlikdən ekvatora doğru əsir.
B) Mülayim enliklərdən tropiklərə doğru passat küləkləri əsir.
C) Yay mussonları zamanı hava axınları qurudan okeana doğru yönəlir.
D) Respublikamıza daxil olan mülayim kontinental hava axınları temperaturu artırır
E) Mərkəzi Asiyadan Respublikamıza gələn hava axınları yayda isti, qışda soyuq və quru hava əmələ gətirir.

**64.** Müvafiq olaraq "*Keçid dövründə*" olan, *"Neft ixrac edən"* və "*Kasıb*" ölkələri seçin
A) Avstraliya ittifaqı,Argentina,Banqladeş
B) Monqolustan, Qətər , Haiti
C) Braziliya, Küveyt, Banqladeş
D) Hindistan,Haiti,Oman
E) Polşa ,Meksika , Kuba

**65.** Ölkənin əhalisinin sayı 10 mln. nəfər, bir ildə doğulanların sayı 90 min nəfər,ölənlərin sayı isə 60min nəfərdir. Hər 1000 nəfər əhaliyə düşən təbii artımı tapın .
A) 8 nəfər B) 15 nəfər C) 3 nəfər
D) 5 nəfər E) 12 nəfər

**66.** XX əsrin ikinci yarısından sonra əhalinin əsas immiqrasiya mərkəzləri hansılardır?
A) Qərbi Avropa, Mərkəzi Asiya ,Şimali Amerika
B) Şimali Amerika , Qərbi Avropa, Yaxın və Orta Şərqin neft hasil edən rayonları
C) Yaxın və Orta Şərqin neft hasil edən rayonları, Şimali Afrika, Cənubi Amerika
D) Şərqi Asiya , Cənubi Asiya , Şimali Amerika
E) Qərbi Avropa, Cənubi Amerika, Şərqi Asiya

**67.** Xəritə-sxemdə müvafiq olaraq səhra, tayqa və enliyarpaqlı meşə təbii zonalarının yerləşdiyi əraziləri müəyyən edin.




A) 3,5,6 B) 1,3,4 C) 1,2,5 D) 1,4,6 E) 1,3,6

**68.** Cədvəldə X ölkəsi üçün verilən məlumatlara əsasən bu ölkədə əhalinin həyat səviyyəsini müəyyən etmək mümkündür. Bu ölkə ilə eyni inkişaf səviyyəsinə aid olan dövlətləri seçin.

| | | |
|---|---|---|
| * | *Əhalinin sayı* | *10 mln.nəfər* |
| * | *ÜMM –in dəyəri* | *550mlrd.dollar* |
| * | *Ölkə xaricində milli şirkətlərin istehsal etdiyi məhsul və xidmətlərin dəyəri* | *250 mlrd dollar* |
| * | *Ölkə daxilində xarici şirkətlərin istehsal etdiyi məhsul və xidmətlərin dəyəri* | *150 mlrd.dollar* |

1. Hindistan 2. Almaniya 3. Meksika
4. Böyük Britaniya 5. İndoneziya 6. Yaponiya
A) 1,2,5 B) 2,3,6 C) 1,2,3 D) 3,4,6 E) 2,4,6

**69.** Azərbaycanda müvafiq olaraq şərq çinarı və tuqay meşələrinin yayıldığı əraziləri müəyyən edin




A) 5,2 B) 1,2 C) 4,5 D) 1,6 E) 5,3

**70.** İqlim diaqramının aid olduğu məntəqəni müəyyən edin




$t,° CY, (mm)$




A) I B) II C) III D) IV E) V

**71.** İşğaldan azad olunmuş rayonlarda yerləşən mineral bulaqlarımız hansılardır?

*1. Turşsu* *2. Badamlı* *3. İlisu*
*4. İstisu* *5. Şırlan* *6. Xaltan*

A) 1,4,5 B) 2,4,6 C) 1,2,3 D) 3,4,6 E) 2,3,6

**72.** Düzgün verilmiş sətirləri seçin .

| | Cərəyan | Okean | Materik sahillərində yaratdıqları təbii zona |
|---|---|---|---|
| 1 | *Qolfstrim* | *Hind okeanı* | *Səhra* |
| 2 | *Bengel* | *Atlantik okean* | *Səhra* |
| 3 | *Kurosio* | *Şimal Buzlu okeanı* | *Meşə* |
| 4 | *Norveç* | *Sakit okean* | *Meşə* |
| 5 | *Peru* | *Sakit okean* | *Səhra* |
| 6 | *Mozambik* | *Hind okeanı* | *Meşə* |

**73.** 1:500000 miqyaslı xəritədə 6sm$^2$ yer tutan su anbarının həqiqi sahəsini km$^2$-lə hesabayın .

**74.** Verilən dərəcə toruna əsasən ştrixlənmiş əraziyə aid olan xüsusiyyətləri müəyyən edin .




*1. Mülayim işıqlanma qurşağına düşür.*
*2. Tropik işıqlanma qurşağına aiddir.*
*3. III saat qurşağına aiddir*
*4. XXI saat qurşagına aiddir.*
*5. Fəsillər aydın nəzərə çarpır*
*6. Bütün fəsillər zəif nəzərə çarpır.*

**75.** Uyğunluğu müəyyən edin

**1. Sakit okeanda donan dənizlər**
**2. Atlantik okeanda donan dənizlər**
**3. Şimal Buzlu okeanında donan dənizlər**

*a. Baltik dənizi* *b. Oxot dənizi*
*c. Ueddell dənizi* *d. Norveç dənizi*
*e. Baffin dənizi*

## RİYAZİYYAT

**76.** $ABCD$ trapesiyasında $(BC \parallel AD)$ $BE \perp AD$, $BC = 4$, $AB = 17, CD = 10$ olarsa, $AD$ −ni tapın.




A) 18 B) 25
C) 35 D) 20
E) 30

**77.** Tənliyi həll edin : $\frac{x}{x+4} = \frac{x-2}{x}$

A) 4 B) -2 C) 1 D) -3 E) -1

**78.** $ABCD$ paraleloqramının $A$ və $D$ təpə bucaqlarının tənbölənləri $BC$ tərəfinin üzərində $E$ nöqtəsində kəsişir. $EL \perp AD$, $EL = 4$, $LD = 2$ olarsa, $ABCD$ paraleloqramının perimetrini tapın.




A) 40 B) 24
C) 28 D) 30
E) 36

**79.** Eyni gücə malik 8 traktor tarlanı 27 saata şumlayır. Bu traktorlara onlarla eyni gücə malik daha neçə traktor əlavə etmək lazımdır ki, həmin tarla 24 saata şumlansın?

A) 3 B) 4 C) 5 D) 2 E) 1

**80.** $ABC$ üçbucağının $AB$ tərəfinə paralel $DE$ düz xətti çəkilmişdir. $AD = 12$, $DC = 18$, $AB = 15$ olarsa, $DE$ −ni tapın.




A) 8 B) 3
C) 9 D) 10
E) 6

**81.** $-3 \leq 4x + 1 \leq 21$ bərabərsizliyini ödəyən tam ədədlərin cəmini tapın.

A) 17 B) 12 C) 9 D) 14 E) 11

Qəbul İmtahanı - 2024

**82.** Şəkildə iti bucaqlarından biri $30^\circ$ olan düzbucaqlı üçbucaq verilmişdir. $x + y = 12$ olarsa, $xy$ hasilini tapın.

A) 18 B) 24
C) 32 D) 48
E) 36




**83.** $\frac{1}{x} + \frac{1}{y} = 4$ olarsa, $\frac{4x+3}{x} + \frac{4y+3}{y}$ ifadəsinin qiymətini tapın.

A) 16 B) 20 C) 24 D) 8 E) 12

**84.** Diaqonalı ilə tərəfinin uzunluqları hasili $36\sqrt{2}$ olan kvadratın perimetrini tapın.

A) 24 B) 18 C) 30 D) 20 E) 16

**85.** Sadələşdirin: $\frac{a}{a-b} - \frac{b}{a+b} + \frac{2a}{a+b} : \frac{a-b}{b}$

A) $\frac{a+b}{a-b}$ B) $\frac{a}{a+b}$ C) $\frac{b}{a-b}$
D) $\frac{1}{ab}$ E) $\frac{2b}{a-b}$

**86.** Diaqonalları perpendikulyar olan $ABCD$ düzbucaqlı trapesiyasının oturacaqlarının uzunluqları uyğun olaraq $x_1$ və $x_2$ –dir. $x_1$ və $x_2$ ədədləri $x^2 - 12x + 16 = 0$ kvadrat tənliyinin kökləri olarsa, trapesiyanın sahəsini tapın.




A) 27 B) 15 C) 21 D) 24 E) 32

**87.** $x + \frac{3}{x} = 4$ olarsa, $x^2 + \frac{9}{x^2}$ ifadəsinin qiymətini tapın.

A) 18 B) 12 C) 10 D) 14 E) 8

**88.** Katetlərindən biri 4 $sm$ olan düzbucaqlı üçbucağın sahəsi 6 $sm^2$ –dır. $(\sin\alpha + \cos\alpha - \tan\alpha)\cdot 20$ ifadəsinin qiymətini tapın.

A) 5 B) 13 C) 3 D) -4 E) 2




**89.** Müəyyən işi birinci usta ikincidən 5 dəfə tez yerinə yetirir. Onlar birlikdə işləsələr həmin işi 5 günə yerinə yetirərlər. İkinci fəhlə təklikdə bu işi neçə günə yerinə yetirər?

A) 24 B) 16 C) 18 D) 12 E) 30

**90.** $ABC$ üçbucağının $AB$ tərəfini $E$ nöqtəsində kəsən $CE$ tənböləni çəkilmişdir. $AC = 24,\ AE = 12,\ EB = 20$ olarsa, $P_{\Delta ABC}$ –ni tapın.

A) 108 B) 96
C) 72 D) 120
E) 112




**91.** ABCD düzbucaqlı trapesiyasında $AC \perp BC$, $AD = a + 2$ $AB = 2a + 5$ və $DC = a + 6$ olarsa, trapesiyanın sahəsini tapın.

A) 110 B) 100
C) 62 D) 182
E) 246




**92.** Sadələşdirin: $\sqrt{\left(\sqrt{3}-2\right)^2} + \sqrt{3}$

A) $2-\sqrt{3}$ B) 3 C) $2\sqrt{3}$
D) 4 E) 2

**93.** Diaqonalları 12 $sm$ və 15 $sm$ olan rombun sahəsini tapın.

A) 50 $sm^2$ B) 80 $sm^2$ C) 75 $sm^2$
D) 90 $sm^2$ E) 120 $sm^2$

**94.** $x^2 - 6x + 2m - 1 = 0$ kvadrat tənliyinin iki müxtəlif həqiqi kökü var. $m$ −in ala biləcəyi natural ədədlərin cəmini tapın.

A) 5 B) -6 C) 3 D) -4 E) 10

**95.** Aşağıdakı verilmiş təkliflərdən həmişə doğru olanları seçin:

*1. Düzbucaqlı diaqonalları bərabər olan paraleloqramdır*
*2. Kvadrat diaqonalları bərabər olan rombdur*
*3. Romb diaqonalları bərabər olan paraleloqramdır*
*4 .Kvadrat diaqonalları perpendikulyar olan düzbucaqlıdır.*
*5. Dördbucaqlının iki qarşı tərəfi bərabərdirsə, onda o paraleloqramdır.*

A) 1,3,5 B) 2,4,5 C) 2,3,4 D) 3,4,5 E) 1,2,4

**96.** İki oxşar üçbucağın uyğun tənbölənlərinin nisbəti $\frac{2}{3}$ - ə bərabərdir. Üçbucaqların sahələri cəmi 39 $sm^2$ olarsa, böyük üçbucağın sahəsini tapın.

A) 30 $sm^2$ B) 27 $sm^2$ C) 36 $sm^2$
D) 24 $sm^2$ E) 18 $sm^2$

**97.** $x_1$ və $x_2$ ədədləri $x^2 - 12x + n = 0$ kvadrat tənliyinin kökləridir. $x_1^2x_2 + x_1x_2^2 = 24$ olarsa, $\frac{x_1}{x_2} + \frac{x_2}{x_1}$ ifadəsinin qiymətini tapın.

**98.** $G$ nöqtəsi $ABC$ üçbucağının medianlarının kəsişmə nöqtəsidir. $AE \perp BL$ , $BG = 12$ və $GE = 4$ olarsa, $AC$ −ni tapın.




**99.** Sadələşdirin: $\left(\sqrt{12} + \sqrt{27} + \sqrt{48} - \sqrt{75}\right) : \sqrt{3}$

Qəbul İmtahanı - 2024

**100.** $ABC$ üçbucağında, $AB = 5$ , $AC = 12$ , $\angle A = \alpha$.
**Uyğunluğu müəyyən edin.**




a) $BC = 13$

b) $7 < BC < 13$

c) $P_{\Delta ABC} = 30$

d) $13 < BC < 17$

e) $24 < P_{\Delta ABC} < 30$

**1.** $\alpha < 90^\circ$

**2.** $\alpha = 90^\circ$

**3.** $\alpha > 90^\circ$

**TARİX**

**101.** Cədvələ əsasən Nadir şah Əfşara aid olan doğru fikirləri müəyyən edin.

| Daxili siyasət | Xarici siyasət |
|---|---|
| *1. İdarə aparatında islahatlar edərək bəzi ali vəzifələrin ləğv edilməsi* | *4. Azərbaycan torpaqlarının vahid inzibati bölgüdə birləşdirilməsi* |
| *2. Borçalı və Şəmşəddil mahallarının gürcü hakiminin idarəçiliyinə verilməsi* | *5. Səfəvilərin hakimiyyətini bərpa etmək istəyən hakimlərə qarşı mübarizə aparılması* |
| *3. Rus qoşunlarının Xəzərsahili bölgələrdən çıxarılması* | *6.Osmanlı sultanı I Mahmudla sülh müqaviləsi bağlaması* |

A) 1,3,4 B) 1,2,6 C) 1,4,5 D) 2,5,6 E) 2,3,6

**102.** Osmanlı (**1**), Rusiya (**2**), İngiltərə (**3**) və hər üç dövlətə (**4**) aid olan cavabları müəyyən edin:




*a. XVII əsrdə burjua inqilabı baş vermişdi*
*b. Dünya hərb tarixində ilk dəfə qumbara atanlardan ibarət ayrıca qoşun növü təşkil edilmişdi*
*c. Cənubi Qafqaz uğrunda mübarizə aparmışdı*
*d. "Müqəddəs birliy"ə daxil olmuşdu*
*e. Qacarlar dövləti ilə müqavilə imzalamışdı*

A) 1e; 2c; 3d; 4b
B) 1a,e; 2d; 3c; 4b
C) 1e; 2c; 3a; 4d
D) 1b; 2d; 3a; 4c,e
E) 1a,b; 2c; 3d; 4e

**103.** İngiltərə tarixinə **aid deyil:**

A) Cənubi Qafqazda Rusiyanın işğalçılıq siyasətinin qarşısını almağa çalışması
B) iqtisadi və siyasi təzyiqlərlə Qacarlar dövlətinin daxili işlərinə qarışmaq imkanı əldə etməsi
C) Ost-Hind şirkətinin Şərqdəki inhisarçı mövqeyini qorumağa çalışması
D) ABŞ-la müharibədə məğlub olaraq müstəmləkə siyasətindən imtina etməsi
E) Misiri ələ keçirmək uğrunda Osmanlı və Fransa ilə mübarizə aparması

**104.** Uyğunluq **pozulmuşdur:**

A) III Səlimin zamanında Osmanlı dövləti müharibəyə başlamışdı—Rusiyaya qarşı
B) Polatava döyüşü qələbəsi ilə başa çatmışdı—Rusiya imperatoru I Pyotrun
C) Şimali Amerikada ilk ingilis koloniyası salınmışdı—Stüartların hakimiyyəti dövründə
D) II Yekaterina və I Aleksandra aid oxşarlıqdır—Azərbaycan xanlıqları üzərinə hərbi yürüş təşkil edilməsi
E) İrəvan və Gəncə Osmanlı hakimiyyəti altında idi—sultan I Mahmudun taxta çıxdığı dövrdə

**105.** 18-ci əsrdə 17-ci əsrdən fərqli olaraq, Azərbaycan tarixinə aiddir:

A) Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlar aparılırdı
B) Rusiya ilə müqavilə imzalanmışdı
C) rus qoşunları ilə hərbi münaqişələr baş vermişdi
D) dövləti iqtisadi cəhətdən qüdrətli hala gətirən tədbirlər görülmüşdü
E) Azərbaycanın bir sıra bölgələri Rusiyanın xammal mənbəyinə çevrilirdi

**106.** 17-ci yüzillikdə İngiltərədə baş verən aqrar çevrilişin əsas mahiyyəti:

A) kənd təsərrüfatında muzdlu əməkdən istifadə və kapitalist münasibətlərinə keçidin formalaşması
B) kəndlilərin torpaq sahibi olan feodallara vergi ödəməsi
C) sənaye məhsullarının istehsalında fabrik və zavodların əsas yer tutması
D) xəzinə gəlirlərinin müstəmləkələrdən toplanan vergilər hesabına artırılması
E) iqtisadiyyatın inkişafı ilə əlaqəli olaraq dövlət quruluşunun dəyişdirilməsi

**107.** Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimal torpaqlarına yürüşü ərəfəsində:

A) Azərbaycanın şimal xanlıqları müqavimət üçün vahid cəbhə yaratdılar
B) Naxçıvan, İrəvan və Quba xanlıqları tabe edildi
C) Rusiya şimal xanlıqlarını qorumaq bəhanəsi ilə Azərbaycan torpaqlarına hərbi müdaxilə başlatdı
D) Qarabağ xanlığı Qacarların hakimiyyətini qəbul etdi
E) Ağa Məhəmməd şah Qacar özünü Səfəvi dövlətinin varisi elan etdi

**108.** Xəritədə verilmiş dövlətlərə aid oxşar cəhətləri müəyyən edin:




*1. Səfəvi dövləti ilə əbədi dostluğun nəzərdə tutulduğu müqavilə bağlanması*
*2. Müstəmləkələr uğrunda Fransa ilə mübarizə aparması*
*3. Azərbaycanın şimal xanlıqlarını süquta uğratması*
*4. 17-cü əsrdə respublikaya çevrilməsi*

A) yalnız 1 B) 1 və 2 C) 1 və 4 D) 2 və 3 E) 1, 2, 4

**109.** Xəritədə ərazisi ulduzla göstərilən xanlıqların 18-ci əsr tarixinə aid oxşar cəhətdir:



A) Urmiya xanı Fətəli xan Əfşardan asılı hala düşməsi
B) Qubalı Fətəli xanın yürüşünə məruz qalması
C) Azərbaycan torpaqlarını vahid dövlət tərkibində birləşdirmə siyasəti aparması
D) müstəqilliklərini itirərək ərazilərinin "Müsəlman əyalətləri rəisliyi"nə daxil edilməsi
E) müdafiə məqsədilə Osmanlı dövləti ilə hərbi ittifaq yaratması

**110.** Sxemi tamamlayın:




A) Düşmən hücumlarından qorunmaq məqsədilə tikilməsi
B) Azərbaycanın xanlıqlar dövrünə aid olması
C) XVIII əsrin ikinci yarısında tikilməsi
D) Qarabağ xanlığının bir müddət siyasi mərkəzi olması
E) Şuşada inşa edilməsi

**111.** İngiltərədə "Şanlı İnqilab"ın nəticələri:

*1. Ölkədə kapitalizmin inkişafının sürətlənməsi*
*2. Kralın mütləq hakimiyyətinin təsdiq edilməsi*
*3. Dünyada ilk dəfə hakimiyyət bölgüsü prinsipinin tətbiq edilməsi*
*4. Siyasi hakimiyyətin burjuaziya və yeni zadəganların əlinə keçməsi*

A) 1,4 B) 2,3 C) 1,3 D) 2,4 E) 3,4

**112.** Doğru olanları müəyyən edin:

| | |
|---|---|
| 1 | *Əfqanlar tərəfindən İsfahan ələ keçirildi-XVIII əsrin ikinci onilliyində* |
| 2 | *Peterburq müqaviləsinin şərtlərini tanımaqdan imtina etdi - Şah II Təhmasib* |
| 3 | *XVII əsrin 60-cı və 90-cı illəri üçün ümumi cəhətdir- Səfəvilər dövlətində hakimiyyətə yeni hökmdarın gəlməsi* |
| 4 | *Kirmanşah müqaviləsi imzalanmışdır- Səfəvi və Osmanlı dövlətləri arasında* |
| 5 | *Qarabağ xanlığından yerli türk tayfalarının bir hissəsini köçürtmüşdü- Nadir şah* |

A) 1,2,5  B) 2,4,5  C) 1,3 4  D) 2,3,4  E) 1,3,5

**113.** Mətndə bəhs edilən Səfəvi hökmdarının Şah Sultan Hüseynlə oxşar cəhətini müəyyən edin:

.... Çoxsaylı ordu ilə Osmanlı torpaqlarına hücum edən müttəfiqlər (*Avropa dövlətləri*) Osmanlını şərqdən də müharibəyə cəlb etmək üçün "*Müqəddəs birliy*"ə qoşulmaq təklifi ilə Səfəvi sarayına elçilər göndərdilər. Səfəvi hökmdarı onlara: "*Biz zor günündə qan və din qardaşlarımızı arxadan vurmayacağıq*", - cavabını verdi.

A) Səfəvi dövlətində dərinləşməkdə olan iqtisadi böhranı aradan qaldırdılar
B) Osmanlılarla sülh müqaviləsi bağlayaraq müharibəyə son qoydular
C) Bəylərbəylik sistemini tətbiq etməyə başlamışdılar
D) Əfqanlarla müharibə aparmışlar
E) Ticarəti canlandırmaq məqsədilə Rusiya ilə danışıqlar aparmışdılar

**114.** Sxemə uyğun cavabı müəyyən edin:

?
- Xarici işğallara qarşı mübarizə aparmaq üçün Osmanlı dövlətinə elçilik göndərmişdir
- "Qızılqaya xəyanəti"ndə iştirak etmişdir
- Gürcü çarının işğalçılıq siyasətinə qarşı mübarizə aparmışdır

A) Heydərqulu xan  B) Şahverdi xan
C) Cavad xan  D) Hacı Çələbi xan
E) Pənahəli xan

**115.** Rusiya hökmdarı I Pyotrdan fərqli olaraq II Yekaterina:

*1. Cənubi Qafqaza qoşun yeritdi*
*2. Şimal ittifaqının yaranmasında fəal iştirak etdi*
*3. Qara dəniz sahillərində qəti olaraq möhkəmləndi*
*4. Rusiyanın Baltik dənizinə çıxış əldə etməsini təmin etdi*
*5. Quba xanlığı ilə diplomatik əlaqələr saxlayırdı*

A) 3,5  B) 1,4  C) 2,3  D) 4,5  E) 1,2



**116.** Xəritə və cədvələ əsasən doğru bəndləri müəyyən edin:




| | Xanlıqlar | Oxşarlıqlar |
|---|---|---|
| I | *1 və 2* | *Birinci Rusiya – Qacar müharibəsi zamanı müqavilə imzalayaraq Rusiyanın əsarəti altına düşdülər* |
| II | *2 və 3* | *Ərazisində bir müddət ikihakimiyyətlilik mövcud olmuşdur* |
| III | *4 və 5* | *İkinci Rusiya – Qacar müharibəsinin əvvəlində Rusiya tərəfindən işğal edilmişdir* |
| IV | *3 və 4* | *Quba xanlığının yürüşünə məruz qalmışdır* |

A) I,II  B) II,IV  C) I,III  D) II,III  E) I,IV

**117.** Uyğunluğu müəyyən edin:

| ***Azərbaycan xanlıqları 19 - cu əsrdə*** | |
|---|---|
| *1. İrəvan xanlığı* | *2. Quba xanlığı* |
| *a.Maku xanlığı ilə həmsərhəd olması*<br>*b.Gülüstan müqaviləsini imzalayaraq Qacarlardan asılı hala düşməsi*<br>*c.İkinci Rusiya-Qacar müharibəsi dövründə rus qoşunları tərəfindən işğal olunması* | *a. Azərbaycanın şimal- şərq torpaqlarının birləşdirilməsi*<br>*b. Georgiyevsk müqaviləsinin imzalanması*<br>*c. Sisianovun başçılığı ilə "Əyalət şurası"nın təşkil olunması* |

A) 1a, 2a  B) 1ac, 2b  C) 1bc, 2ac
D) 1a, 2bc  E) 1b, 2b

**118.** ABŞ-ın konstitusiyasına görə qanunverici hakimiyyət məxsus idi:

A) prezidentə  B) xalqa  C) konqresə
D) ali məhkəməyə  E) lordlar palatasına

**119.** Uyğunluğu müəyyən edin:

**XVII əsr**

**1. İngiltərə**

*a. Yeni sülalənin hakimiyyətə gəlməsi*
*b. Səfəvi dövləti ilə diplomatik əlaqələr saxlaması*
*c. "Möhür" qanununun qəbul edilməsi*

**2. Osmanlı**

*a. Prut müqaviləsi ilə geniş ərazilər ələ keçirməsi*
*b. Krit adasının fəthi*
*c. Qəsri – Şirin müqaviləsinin imzalanması*

A) 1-b; 2-a,b B) 1-a,c; 2-b,c C) 1-a,b; 2-b,c
D) 1-a,c; 2-a,b E) 1-b,c; 2-b

**120.** Cədvəldə dövlətlərə aid xüsusiyyətlərin doğru seçildiyi bəndi müəyyən edin.

| | *Azərbaycanı torpaqlarını birləşdirilmə siyasəti həyata keçirməyə çalışmışdır* | *Quba xanlığından asılılığı qəbul etmişdir* | *Şəki xanlığının yürüşünə məruz qalmışdır* | *Rusiyanın himayəsini qəbul etmişdir* |
|---|---|---|---|---|
| A)Şamaxı xanlığı | ✔ | | ✔ | |
| B) Gəncə xanlığı | | ✔ | | ✔ |
| C) İrəvan xanlığı | ✔ | | | ✔ |
| D) Lənkəran xanlığı | | ✔ | ✔ | |
| E) Qarabağ xanlığı | ✔ | | ✔ | |

**121.** XVIII əsrin 30-cu və 90-cı illəri Azərbaycan tarixinə aid oxşar cəhət:
A) Bakı xanlığının Çar Rusiyasının hücumlarına məruz qalması
B) İşğalçıların ölkə ərazisini tərk etməyə məcbur olması
C) Yeni yaranan dövlətin bütün ölkə torpaqlarını vahid dövlədə birləşdirməsi
D) Feodal dağınıqlığı dövrünün başlaması
E) Xanlıqların Azərbaycan torpaqlarını birləşdirməyə çalışması

**122.** Xronoloji ardıcıllığı müəyyən edin (*I Rusiya-Qacar müharibəsi*):
1. *Sultanbud döyüşü*
2. *Rus qoşunları tərəfindən Lənkəran xanlığının işğal edilməsi*
3. *Qarababa döyüşü*

**123.** Osmanlı sultanı III Əhmədin hakimiyyəti dövrünə aiddir:
1. *Osmanlı hakimiyyətinə xidmət edən feodallara "bəylik" və ya "ağalıq" adlanan torpaqların verilməsi*
2. *İslahatlar keçirərək dövlətin əvvəlki iqtisadi qüdrətini bərpa etməsi*
3. *Cənubi Qafqazda Osmanlı-Rusiya sərhədlərinin müəyyənləşdirilməsi*
4. *Osmanlı dövlətinin durğunluq dövrünə daxil olması*
5. *İsveç kralı XII Çarlzın rus ordusunun təqibindən xilas olması*

**124.** Klasteri tamamlayın.

*Səfəvi dövləti XVII əsrdə*
- *Mərənd müqaviləsinin imzalanması*
- 
- 
- 

1. *Rusiyanın hərbi işğal yolu ilə Xəzərsahili bölgələri ələ keçirməyə çalışması*
2. *Azərbaycan uğrunda Osmanlı dövləti ilə müharibələr aparılması*
3. *Rusiya ilə ticarət müqaviləsinin imzalanması*
4. *İran körfəzində Portuqaliyalılara qarşı mübarizə aparılması*
5. *Azərbaycan ərazisinin böyük bir hissəsini itirməsi*

**125.** Uyğunluğu müəyyən edin.

| Müqavilələr | Rusiya imperiyası | |
|---|---|---|
| Kürəkçay | ***1*** | |
| Gülüstan | ***2*** | |
| Türkmənçay | ***3*** | |

a. *Qacarlar dövlətində istədiyi şəhərdə özünün diplomatik nümayəndəliyini açmaq hüququ qazandı*
b. *Qarabağ xanlığı ilə imzalanmışdır*
c. *Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal torpaqlarının işğalını rəsmiləşdirdi*
d. *Araz çayından şimalda yerləşən xanlıqların Qacarlar dövləti tərəfindən işğalını tanıdı*
e. *Azərbaycanın şimal torpaqlarına ermaniləri köçürməsini nəzərdə tuturdu*

Qəbul İmtahanı - 2024

# TDV Bakı Türk Liseyinin 2001-2023-cü illər üzrə qəbul uğurları

| Say | Kateqoriya |
|---|---|
| 19 nəfər | 700 bal |
| 34 nəfər | Ölkə birincisi |
| 2048 nəfər | Məzun sayı |
| 911 nəfər | 600 bal |
| 104 nəfər | Prezident təqaüdçüsü |
| 148 nəfər | Qızıl medal |

---

## TDV BTL 2023-cü il üzrə qəbul uğurları

- 22 nəfər — YTB bursu
- 99 nəfər — Xarici ölkə universitetlərinə qəbul sayı
- RFO 2023 — 11 qızıl, 14 gümüş, 19 bürünc
- RFM 2023 — 7 qızıl, 14 gümüş, 15 bürünc
- 1 nəfər — Ölkə birincisi
- 14 nəfər — Qızıl medal
- 38 nəfər — 600 bal
- 4 nəfər — Prezident təqaüdçüsü